**M.İ.ƏMRAHOV**
*tarix elmləri doktoru, professor*
*e-mail: emrahov48@mail.ru*

**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu**
(Bakı şəh., H.Cavid pr., 31)

**M.M.ƏMRAHOVA**
*baş müəllim*

**Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)**
(Şəki şəh., M.Ə.Rəsulzadə küç., 305)

# 44 GÜNLÜK MÜHARİBƏ DÖVRÜNDƏ "ƏSGƏRƏ MƏKTUB!" LAYİHƏSİNDƏ MƏKTƏBLİLƏRİN İŞTİRAKI

***Açar sözlər:*** *Birinci Qarabağ müharibəsi, Vətən müharibəsi, təhsil sistemi, "Əsgərə məktub!" layihəsi*
***Ключевые слова:*** *Первая Карабахская война, Отечественная война, система образования, проект "Письмо солдату!"*
***Key words:*** *The First Karabakh War, the Patriotic War, the education system, "Letter to the Soldier!" project*

I Qarabağ müharibəsi dövründə Ermənistanın işğalçılıq siyasəti nəticəsində Qarabağda 693 məktəb, 855 uşaq bağçası dağıdılmışdır. İşğala qədər Şuşada 7 məktəbəqədər uşaq müəsssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif və kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, Laçında 100 ümumtəhsil məktəbi, 5 məktəbəqədər təhsil müəssisəsi, 5 musiqi məktəbi, 1 internat və 1orta texniki peşə məktəbi, Ağdam rayonunda 34 uşaq bağçası və körpələr evi, 89 ümumtəhsil məktəbi, Kəlbəcər rayonunda 2 məktəbəqədər müəssisədə 70 uşaq tərbiyə alır, 8 ibtidai, 43 səkkizillik, 26 orta məktəbdə 12 min şagird oxuyurdu. Qubadlı rayonunda işğala qədər fəaliyyət göstərən 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb, 7 məktəbəqədər təhsil müəssisələrində çalışan 1280 nəfər müəllimin 925 nəfəri ali təhsilli idi. Zəngilan rayonunda işğaldan əvvəl 9 məktəbəqədər müəssisə, 19 ibtidai məktəb, 15 orta məktəb, bir texniki peşə və musiqi məktəbi vardı. Füzuli rayonunda vaxtilə mövcud olmuş 86 və Cəbrayıl rayonlarındakı 73 məktəb hazırda Azərbaycanın müxtəlif rayonlarında fəaliyyət göstərmişdir. Ermənilər tərəfindən həyata keçirilən separatçı fəaliyyət nəticəsində Dağlıq Qarabağ və işğal olunmuş ətraf rayonlarda yerləşən 6 peşə təhsili müəssisəsinin fəaliyyəti tamamilə dayandırılmış, 5 peşə təhsili müəssisəsi isə müvəqqəti olaraq digər bölgələrə köçürülmüşdür. Müvəqqəti olaraq digər bölgələrə köçürülən peşə təhsili müəssisələri arasında Kəlbəcər, Laçın və Cəbrayıl Peşə Məktəbləri və Füzuli Dövlət Peşə Təhsil Mərkəzi də olmuşdur.

44 günlük Vətən müharibəsi təhsilimizdə yeni itkilərə səbəb oldu. 20 təhsil işçisi döyüşlərdə qəhrəmanlıq və şücaət göstərərək şəhidlik zirvəsinə ucaldı. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə şəhid təhsil işçilərindən 19 nəfəri "Vətən uğrunda", 7-si "Şuşanın azad olunmasına görə", 3-ü "Füzulinin azad olunmasına görə", 2-si "Xocavəndin azad olunmasına görə", 4-ü "Cəsur döyüşçü", 4-ü "Döyüşdə fərqlənməyə görə", 5-i "Qubadlının azad olunmasına görə", 5-i "Cəbrayılın azad olunmasına görə", 2-si "Laçının azad olunmasına görə", 1 nəfəri "İgidliyə görə", 1 nəfəri "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi. (3)

İşğal altında olan torpaqlarımızın azad edilməsi üçün səfərbərliyə qoşulanlar sırasında 20 məktəb direktoru, 32 direktor müavini, 671 müəllim düşmənə qarşı vuruşaraq qəhrəmanlıqlar göstərdilər. (3) Bakı məktəblərinin 354 məzunu şəhidlik zirvəsini fəth etdi (4). Bakı Şəhər Təhsil İdarəsinin ümumi təhsil məktəblərində çalışan müəllimlərdən 95 nəfəri (onlardan

24-ü fənn müəllimi, 71-i isə gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbərdir) hərbi mükəlləfiyyətlə bağlı vəzifələri yerinə yetirmək üçün səfərbərlik xidməti orqanları tərəfindən hərbi toplanışlara cəlb edilmişdir”. (6)

44 günlük müharibədə, məktəb infrastrukturuna ciddi ziyan dəydi – 60 təhsil müəssisəsi dağıntılara məruz qaldı. Ermənistanın törətdiyi terror aktlarının ilk qurbanları məktəblilər oldu. Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində 10 məktəbli həlak oldu, 16 məktəblimiz yaralandı (6). Gəncədə baş verən terror aktı nəticəsində yaralananların 10-u məktəblidən Ömər Mehdiyev Gəncə şəhəri 32 nömrəli tam orta məktəbin 2-ci, Səlim Mustafazadə həmin məktəbin 11-ci, Murad Cavadov 3-cü, Dinarə Muradova 2-ci, Rauf Muradov 4-cü, Hüseyn Əliyev 3-cü, Sevinc Rəhimova 6-cı sinif şagirdləri idilər. Aysu Əliyeva Gəncə şəhəri 20 nömrəli tam orta məktəbin 10-cu, Şəfa və Şəmiddin Şirinovlar 25 nömrəli tam orta məktəbin 6-cı və 7-ci sinfində təhsil alırdılar. (2, s.319)

Lakin müharibə bölgələrindən 100 kilometrlərlə uzaqda olan şəhərlərin raket atşinə tutulması Azərbaycan xalqını, xüsusilə, cəbhəyanı ərazilərin əhalisini qorxutmadı. Bunun əsas səbəbi xalqın prezidentə inamı və güvəni idi. (1)

Arxa cəbhənin ön cəbhə ilə əlaqələrinin möhkəmlənməsində, əsgərlərin arxa cəbhədəki vəziyyətlə tanışlığında və xalq-ordu birliyinin yaranmasında “Əsgərə məktub!” layihəsi mühüm rol oynadı. Bu layihədə məktəblilər xüsusi fəallıq göstərdilər. Məktublarda şagirdlər öz arzu və istəklərini bildirir, onlarla qələbə sevinclərini bölüşürdülər. Hər məktub bir məktəblinin ordumuza, ordumuzun əsgərinə səmimi müraciəti, onun vətən sevgisi ilə döyünən ürəyinin diqtəsi idi. Müzəffər ordumuzun qəhrəman əsgərləri işğaldan azad olunmuş torpaqlarda məktəblilərimizin göndərdiyi məktubları oxuyaraq yalnız olmadıqlarını, bütün Azərbaycan xalqının ürəyinin onlarla birlikdə Qarabağda, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Füzulidə, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada döyündüyünü hiss edirdilər.

Şəki şəhər Heydər Əliyev Mərkəzi və Şəki Mərkəzləşdirilmiş Kitabxanalar Sisteminin 9 saylı kitabxana filialı, Şəki regional ASAN Xidmət Mərkəzinin təşəbbüsü ilə həyata keçirilən “Əsgərə məktub” layihəsinə qoşulan müəllimlər və məktəblilər Azərbaycan Silahlı Qüvvələrinin əsgərlərinə göstərdiyi möhkəm iradəyə görə minnətdarlığını, var gücüylə dəstəyə və döyüşə hazır olduqlarını bildirməklə onlarda ruh yüksəkliyini daha da artırmaq üçün “Əsgərə məktub” layihəsi vasitəsilə Vətənin keşiyində duran əsgərlərimizə ürək sözlərini, mənəvi dəstəklərini öz məktublarında qeyd edirdilər.

Əsgərə yazılan məktubların əsas ideyasını “Pələng ruhu tülkü ruhuna dəyişilə bilməz” ideyası təşkil edirdi. Məsələn, Yusifzadə Ayan Vüqar qızı yazırdı: “Salam, qələbə tarixini yazan Azərbaycan əsgəri! Mən, Sumqayıt şəhəri Nizami Gəncəvi adına Texniki və Təbiət elmləri liseyinin 8-ci sinfində oxuyuram. Biz sizinlə çox qürur duyuruq. Çünki siz Azərbaycan xalqının arzularını yerinə yetirirsiniz. ...Mənim atam şəhid polkovnik Vüqar Yusifovdur.... Atamın ən çox bayraq sancmaq istədiyi yer Kəlbəcər idi. Mən çox istərdim ki, siz Kəlbəcərə bayraq sancanda atamın adını da çəkəsiniz. ...Torpaqlarımızı yağı düşməndən azad edib evinizə, əzizlərinizin yanına, doğma yurdlarınıza sağ-salamat qayıdasınız”. (5)

Əsgərə məktub” layihəsi Türkiyə və Rusiya mediasının diqqət mərkəzində idi. Türkiyənin “Haber Global”, “CNN Türk”, “A Haber”, həmçinin Rusiyanın “Pervıy Kanal”, “NTV”, “Rossiya-1” və “Rossiya-24” telekanalları “ASAN Könüllüləri” Təşkilatının “Əsgərə məktub” layihəsini əks etdirən xüsusi reportajlar hazırlamışlar. Layihə çərçivəsində qəhrəman Vətən övladlarına ünvanlanan mesajlar əks olunub, vətəndaşlarımızın yüksək qələbə əzmində olduqları, tezliklə işğaldan azad olunacaq torpaqlarda Azərbaycan Bayrağının dalğalanacağına əminlik nümayiş olunub. Reportajlarda Silahlı Qüvvələrə Yardım Fondu üzrə ödənişlərin ASAN ödəniş” sisteminə uğurla inteqrasiya olunduğu da diqqətə çatdırılıb. (1)

İnstaqram izləyiciləri və “Əsgərə məktub” layihəsində iştirak edən Qarabağ müharibəsi veteranları, qaziləri və Cəmşid Naxçıvanski adına Hərbi Lisey kursantları cəbhə bölgəsində

döyüş mövqelərində qulluq edən əsgərlərə yazılan məktubları əsgərlər oxuyub və video çəkiliş vasitəsi ilə məktubları cavablandırıblar.

Ölkənin bir çox bölgəsində qurulmuş mobil poçt qutularına axışan azərbaycanlılar 30 ilə yaxındır ki, erməni işğalı altındakı şəhər və kəndləri xilas etmiş əsgərlərə duyğu və sevgilərini göstərirdilər.

### Ədəbiyyat

1. "Azərbaycan" qəzeti, 2020, 18 aprel.
2. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru, 27 sentyabr-10 noyabr 2020-ci il). Bakı: ŞƏRQ-Qərb, 2021, 444 s.
3. https://mektebgushesi.az/2021/10/05/44-gunluk-v%C9%99t%C9%99n-muharib%C9%99sind%C9%99-671-mu%C9%99llim-dusm%C9%99n%C9%99-qarsi-vurusub/
4. https://konkret.az/baki-mekteblerinin-sehid-olmus-354-mezunu-ve-20-muellimnin-xatiresi -anildi/
5. https://www.moderator.az/news/357597.html
6. https://telebe.az/mekteb/muharib%C9%99-dovrund%C9%99-t%C9%99hsil-sah%C9%99sind%C9%99-bas-ver%C9%99n-%C9%99sas-hadis%C9%99l%C9%99r-vacib-m%C9%99qamlar/

**М.И.Амрахов, М.М.Амрахова**

**Участие школьников в проекте "Письмо солдату!" во время 44-дневной войны**

***Резюме***

В статье сообщается, что оккупация системы образования в годы Первой Карабахской войны и 44-дневной Отечественной войны нанесла нашему образованию новые потери. Сообщается, что в ходе 44-дневной войны школьная инфраструктура была сильно повреждена: разрушено 60 учебных заведений. В ходе агрессии армянских вооруженных сил погибли десятки школьников. В 44-дневную Отечественную войну студенты приняли активное участие в проекте "Письмо солдату!". 20 педагогов отдали свои жизни, проявив героизм и отвагу в боях за Родину.

**M.I.Amrahov, M.M.Amrahova**

**During the 44-day war, "Letter to the Soldier!" participation of students in the project**

***Summary***

The article informs that the occupation of the education system in the First Karabakh War and the 44-day Patriotic War caused new losses in our education. It is reported, that during the 44-day war, school infrastructure was severely damaged- 60 educational institutions were destroyed. Dozens of schoolchildren were killed in the aggression of the Armenian armed forces. In the 44-day Patriotic War, "Letter to the Soldier!" The students took an active part in the project. 20 teachers gave their lives, showing heroism and courage in the battles for the Motherland.

*Rəyçi: tarix.f.d., dos. N.Axundova*

*Redaksiyaya daxil olub: 14.05.2022*